# Son bir ildə ölkəmizin tarixinə yeni uğurlu səhifələr yazıldı



Prezident seçkilərindən keçən bir ilin hər anı ölkəmizin tarixinə yeni səhifələr yazıb. Dövlət başçımızın uzaqgörənliyi, müdrikliyi sayəsində son prezident seçkilərindən sonra çox mühüm layihələrə, proqramlara imza atılıb və qarşıya qoyulan vəzifələrin yerinə yetirilməsi üçün əsaslı tədbirlər görülüb.



Prezident seçkilərindən sonra Azərbaycanda parlament seçkiləri baş tutdu. Bu da ölkənin ictimai-siyasi həyatında mühüm hadisə idi. Bu seçkilərin yüksək səviyyədə keçirilməsi həm beynəlxalq aləmdə qazanılan nüfuzumuza, həm də demokratik inkişafımıza töhfə idi. Bu seçkilər yüksək təşkilatçılıq şəraitində keçdi və ən layiqli namizədlər parlamentə seçildilər.

Ölkənin həyatında ən mühüm hadisələrdən biri isə COP29-un Azərbaycanda keçirilməsi oldu. Dünya əhəmiyyətli bu konfransın ölkəmizdə keçirilməsi Prezident İlham Əliyevin fəaliyyətinə verilən yüksək qiymət, həm də ölkəmizə göstərilən böyük etimad idi. Belə tədbirə yüksək səviyyədə təşkilatçılıq etmək bir çox halda qeyri-mümkündür. Vaxtına on bir ay qalmasına baxmayaraq, Azərbaycanda belə bir tədbirin təşkili göstərdi ki, dövlətimiz öz işi ilə başqa dövlətlərə nümunə olmağa qadirdir. Düzdür, bu beynəlxalq konfransın qarşısını almaq üçün Qərbdən bir çox maneə ilə qarşılaşdıq, ancaq Azərbaycan Prezidentinin nüfuzu, onun təşkilatçılığı, beynəlxalq qurumlarla, dövlətlərlə münasibətin qurulmasına verdiyi önəm bütün maneələrin, çətinliklərin qarşısını aldı. Dövlət başçısı bu konfransda istənilən məqsədə çatdı və dünyaya nümunə oldu. Bu, qürurverici haldır.

İlham Əliyev ilk dəfə prezident seçiləndən qarşıya qoyulan vəzifələri, öhdəlikləri sistemli şəkildə həyata keçirir və "Mən hər bir Azərbaycan vətəndaşının prezidentiyəm" prinsipinə dönmədən əməl edir. Prezident İlham Əliyev Milli Məclisin yeddinci çağırış ilk iclasında çıxışında da bu vədləri layiqincə doğrultduğunu bir daha sübut etdi və çox mühüm vəzifələr qarşıya qoydu. Vəzifələrin ən birincisi ölkənin milli təhlükəsizliyinin təmin olunması, müdafiə qabiliyyətinin möhkəmləndirilməsi, müdafiə sənayesinin inkişaf etdirilməsi, sərhədlərimizin qorunmasıdır. Ölkə rəhbəri bildirmişdi ki, müharibə qurtarsa da, ancaq Ermənistan və bu təcavüzkar ölkəyə havadarlıq edənlər revanş götürmək, Azərbaycan torpaqlarını yenidən işğal etmək, müharibəni qızışdırmaq fikrindədirlər. Ona görə də Azərbaycan öz müdafiə qüdrətini, ordu quruculuğunu durmadan möhkəmləndirməli və yeri gələndə düşmənə layiqli cavab verməlidir.

Cənab Prezidentin qarşıya qoyduğu prioritet vəzifələrdən biri də Azərbaycan vətəndaşının sosial rifahının yüksəldilməsidir. Dövlət büdcəsindən insanların sosial müdafiəsi üçün layihələrin həyata keçirilməsinə ciddi vəsait ayrılır. Səbəbsiz deyil ki, büdcə xərclərinin 41 faizi sosial məsələlərin həllinə yönəldilib. Bu vəsaitin artırılması daim diqqət mərkəzindədir.

Prezident işğaldan azad olunmuş ərazilərdə quruculuq, abadlıq və bərpa işlərinin sürətləndirilməsinə və əhalinin tez bir zamanda öz ata-baba yurdlarına köçürülməsinə böyük önəm verir. Məhz bunun nəticəsidir ki bu günə kimi 30 mindən çox insan həmin ərazilərə qayıdıb. Cənab Prezident bəyan etmişdi ki, bu ərazilərə indiyədək 19 milyard manat vəsait ayrılıb və bu il üçün əlavə 4 milyard manat vəsaitin ayrılması nəzərdə tutulur. Dövlət başçısı əminliklə bildirdi ki, düşmən tərəfindən dağıdılan, viran edilən şəhər və kəndlərimiz durmadan abadlaşdırılacaq. Qarabağ torpaqları cənnətə çevriləcək. Qarabağ və Şərqi Zəngəzur dünyanın ən gözəl regionlarından biri olacaq. Əlbəttə ki, bu vəzifələr nəinki dövlət başçısının, eləcə də hər bir insanın ürəyindən gələn arzulardır. Prezident İlham Əliyev bu məqsədlər uğrunda insanları birləşdirməyi çox yaxşı bacarır. Bu, 44 günlük müharibədə də, 23 saatlıq antiterror tədbirlərində də, bu gün ölkənin ictimai-siyasi həyatında vətəndaşların fəallığında da özünü aydın göstərir.

Cənab Prezident son illərdə 100 dəfə işğaldan azad olunmuş ərazilərə səfər edib və bu səfərlərin hər biri onda yeni duyğular, yeni ab-hava yaradıb. Bu duyğuların nədən ibarət olduğu bizə aydındır. Ölkəmizin rəhbəri qürur içindədir. Otuz ildən çox işğal altında qalan torpaqlara səfər etmək, orada möhtəşəm quruculuq işlərinin şahidi olmaq, vətəndaşların öz dədə-baba torpaqlarına qayıtmasını seyr etmək, həqiqətən, qürurvericidir. Bu, hər birimizi sevindirir.

Bu günlərdə Azərbaycan Prezidenti Davosda Dünya İqtisadi Forumunda iştirak etdi və həmin forumda dünyanın bəzi ölkələrinin prezidentləri, iri şirkətlərin rəhbərləri ilə görüşdü. Azərbaycanda baş vermiş yeniliklər, eləcə də bəşəriyyəti düşündürən problemlər barədə aydın fikirlərini ortaya qoydu. Bu görüşlərdə də əsas məqam Azərbaycanın mənafeyinin, milli maraqlarının qorunması idi. Azərbaycanın məqsədi beynəlxalq əməkdaşlığın möhkəmləndirilməsi, dünyada sülhün, əmin-amanlığın yaradılmasıdır. Ölkəmizin rəhbəri bunu daim diqqətə çatdırır. Bu gün Azərbaycanın Cənubi Qafqazda lider dövlətə çevrilməsi, öz sözünü deməsi, sülhə, sabitliyə verdiyi töhfə bəşəriyyət tərəfindən yüksək qiymətləndirilir. Əməkdaşlıq, qarşılıqlı münasibətlər qurulmadan dünyada sülh təmin etmək mümkün deyil. Buna görə də Azərbaycan Prezidenti regionda nüfuzlu lider kimi tanınır və burada baş verən hadisələri bilavasitə nəzarətdə saxlayır, sülhün təmin olunmasının qarantı kimi çıxış edir. Bu günlərdə Gürcüstanın Baş naziri İrakli Kobaxidzenin Azərbaycana səfəri də bunu göstərdi. Gürcüstanda baş verən hadisələr, Avropanın təzyiqləri, burada milli maraqlara zərbə vurmaq cəhdləri Azərbaycanı da narahat edir.

Ölkə rəhbərinin qarşısında duran ən başlıca vəzifələrdən biri Azərbaycanla Ermənistan arasında sülh müqaviləsinin bağlanmasıdır. Son bir ildə cənab Prezident bu istiqamətdə bütün vasitələrdən istifadə edərkən öz sözünü deyib, lakin Ermənistan rəhbərliyi, onu müdafiə edən qüvvələr sülhün yaranmasında ciddi maneələr törədirlər. Dövlətimizin başçısı dəfələrlə bildirib ki, sülh bizdən çox Ermənistana lazımdır. Azərbaycan qüdrətli dövlətdir, beynəlxalq aləmdə böyük nüfuza malikdir. Biz istənilən vaxt istənilən maneənin qarşısını ala bilərik.

Azərbaycan Prezidenti cənab İlham Əliyevin birillik fəaliyyəti çox uğurludur və hər kəs bunu belə qiymətləndirir. Bu uğurlar dövlətimizin inkişafına, xalqın rifahına, ordumuzun güclənməsinə, milli maraqlarımızın təmin olunmasına xidmət edir. Buna görə də hər kəs bu uğurlarda Prezidentin yanında olmaqdan qürur duyur.

***Tahir RZAYEV,***
***Milli Məclisin Aqrar siyasət komitəsinin sədri***

Azərbaycan .-2025.- 7 fevral (№ 27).- S.3.